


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 78 (24.215)

*4 may 2023-cü il, cümə axşamı*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 30 qəpik


## Prezident İlham Əliyev Şuşada "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda beynəlxalq konfransda iştirak edib



Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə" mövzusunda dördüncü beynəlxalq konfrans keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev konfransda iştirak edib.

**AZƏRTAC**

## "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin ləğv edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxs ləğv edilsin.

2. Naxçıvan Muxtar Respublikasının İqtisadiyyat Nazirliyi:

2.1. "Naxçıvan Muxtar Respublikasının Dövlət Sığorta Xidməti" publik hüquqi şəxsin ləğv edilməsi ilə əlaqədar Azərbaycan Respublikasının Mülki Məcəlləsində nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini təmin etsin;

2.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti iki ay müddətində:

3.1. Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin aktlarının bu Sərəncama uyğunlaşdırılması ilə bağlı təkliflərini Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə təqdim etsin;

3.2. Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin normativ hüquqi aktlarının bu Sərəncama uyğunlaşdırılmasını təmin edib Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisi sədrinin birinci müavini** **Azər ZEYNALOV**

*Naxçıvan şəhəri, 3 may 2023-cü il*

## Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin mətbuat xidmətinin məlumatı

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Naxçıvan Muxtar Respublikasının Dövlət Əməyin Mühafizəsi Fondunun yaradılması və Əsasnaməsinin təsdiq edilməsi haqqında 17 aprel 2023-cü il tarixli Qərarı qəbul edilmişdir. Fondun yaradılmasında məqsəd muxtar respublikada əməyin mühafizəsi sahəsində vahid dövlət siyasətinə uyğun olaraq həyata keçirilən əməyin mühafizəsi tədbirlərinə maddi-texniki dəstək verməkdən ibarətdir. Fondun idarə edilməsi Naxçıvan Muxtar Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən həyata keçiriləcəkdir.

Nazirlər Kabinetinin 20 aprel 2023-cü il tarixli Qərarı ilə "Naxçıvan Muxtar Respublikasında dövlət büdcəsindən maliyyələşən idarə, müəssisə və təşkilatlarda nəqliyyat vasitələrindən istifadə qaydalarının təkmilləşdirilməsi haqqında", "Mərkəzi icra hakimiyyəti orqanları tərəfindən konkret sahələr üzrə elektron xidmətlər göstərilməsi Qaydaları"nın və "Həbs edilmiş şəxslərin hava gəmisində daşınması Qaydası"nın təsdiq edilməsi barədə", "Naxçıvan Muxtar Respublikasında müsadirə edilmiş, sahibsiz qalmış, vərəsəlik hüququ əsasında dövlət mülkiyyətinə keçən əmlakın və dəfinələrin uçotu, qiymətləndirilməsi, saxlanılması, istifadəsi və satışı barədə Əsasnamə"də, "Poçt göndərişlərində göndərilməsi qadağan olan malların və əşyaların Siyahısı"nda "Naxçıvan Beynəlxalq Hava Limanında xüsusilə mühüm şəxslər (VİP) və rəsmi nümayəndə heyətləri salonunun xidmətlərindən istifadə Qaydaları"nın təsdiq edilməsi haqqında", eləcə də "Naxçıvan Muxtar Respublikası Xarici Kəşfiyyat Xidmətinin hərbi qulluqçularının hərbi geyim forması ilə təmin edilməsi normaları"nın təsdiq edilməsi haqqında qərarlarında dəyişikliklər edilmişdir.

Həmçinin Nazirlər Kabinetinin 25 aprel 2023-cü il tarixli Qərarı ilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Məşğulluq Agentliyinin nəzdində "Naxçıvan DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılması haqqında Qərar qəbul edilmişdir. "Naxçıvan DOST İş Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin yaradılmasında məqsəd muxtar respublikada işaxtaran və işsiz şəxslərin ictimai işlərə, həmçinin aktiv məşğulluq tədbirlərinə əlçatanlığını təmin etməkdən ibarətdir.

"Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı məhsullarının istehsalı ilə əlaqədar fiziki və hüquqi şəxslərə Naxçıvan Muxtar Respublikası büdcəsinin vəsaiti hesabına subsidiyaların verilməsinin müvəqqəti Qaydası" təsdiq edildiyindən və həmin Qaydaya əsasən aqrar sahədə subsidiyaların tətbiqi ilə bağlı qərarları qəbul edən Şura yaradıldığından Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 27 aprel 2023-cü ilə tarixli Sərəncamı ilə yaradılmış komissiya ləğv edilmişdir.

*2023-cü il "Heydər Əliyev İli"dir*

## Naxçıvanın xilası və inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır

1990-cı illərin çətin günlərində xalqına dayaq olan, öz canını təhlükəyə atmaqdan çəkinməyib yurdumuza qayıdan, yoxdan varı yaradan dahi bir insanın yaşadığı dövrdə yaşamaq, Onun mübarizəsinə şahidlik etmək, dahi rəhbərin uzaqgörənliyi ilə ümidsizlikdən işıqlı gələcəyə addımlamaq qismətimiz oldu bizim. Heç yadımdan çıxmaz, dahi şəxsiyyəti ilk dəfə həmin çətin günlərin birində Şərur şəhərinin mərkəzində yerləşən Azadlıq meydanındakı mitinqdə görmüşdüm. Meydanda minlərlə insan var idi. Ulu Öndər şux addımlarla meydanın ortasına gəlib kürsüdə öz yerini tutdu, əlini havaya qaldırıb hamını salamladığı anda izdihamlı meydana sükut çökdü. Hamı susdu, hər kəsin diqqəti Ona yönəldi. Dediyi hər cümlə alqışla qarşılanırdı. İnsanların sevincinin həddi-hüdudu yox idi. Hər kəs Onu yaxından görmək, dediyi kəlmələri duymaq istəyirdi. Dahi rəhbər çıxışını bitirdikdən sonra oraya toplaşan insanlarla, Sədərəkdə gedən şiddətli döyüşlərdə iştirak etmək üçün orada olanlarla söhbət etdi. İnsanlar Ona böyük ümid bəsləyir və bütün çətinliklərdən Ulu Öndər Heydər Əliyevin köməyi ilə çıxacaqlarına inanırdılar. Həmin illərdə Naxçıvan bir tərəfdən xain qonşularımızın hücumlarına məruz qalır, təkbaşına ona inadla müqavimət göstərir, torpaqlarımız igid oğulların şücaəti, canı-qanı bahasına qorunurdu. Digər tərəfdən isə qədim yurdumuzun blokadaya salınması ilə bağlı yaranmış çox ciddi problemlərlə mübarizə aparmalı olurdu. Buna, əslində, ölüm-dirim mübarizəsi də deyə bilərik. Nə mavi yanacaq var idi, nə işıq. Sərhədimizə amansız hücumlar edilir, başımıza yağdırılan bombalar yurdumuzu xarabaya çevirir, əzizlərimiz gözlərimizin önündə qurban gedirdi. Həmin illərdə



çox çətin sınaqla müharibə və ondan da betər olan aclıqla üzləşmişdi naxçıvanlılar... Bütün bunlara baxmayaraq, qazandığımız müstəqilliyi itirməməyə səy göstərir, torpağımızı qoruyur, bir addım belə geri çəkilmirdik. Yurdumuzun sakinləri bir olduqca, çiyin-çiyinə verdikcə sanki bəlalar bizdən qorxub geri çəkilirdi. Dövlət xadimi Heydər Əliyevin ətrafında sıx birləşən muxtar respublika sakinləri gələcəyə böyük ümidlə baxır, bütün məsələlərin öz həllini tapacağına inanırdılar. Naxçıvan sakinləri ilə bərabər qazsız, işıqsız, soyuq, şaxtalı günlərdə çıraq işığında yaşayıb, gərgin əmək sərf edərək böyük nailiyyətlərin təməlini atdı yurdumuzun dahi oğlu. Dərin zəkası, uzaqgörənliyi, tükənməz enerjisi və təhlil bacarığı görkəmli dövlət xadiminə imkan verirdi ki, ən çətin və çıxılmaz vəziyyətlərdə öz xalqı və Vətəni üçün mümkün variantın ən düzgününü seçib gərginliyi aradan qaldırsın. İlk olaraq düşmən hücumlarının qarşısı alındı, nizamlı ordu, qonşu dövlətlərlə diplomatik əlaqələr yaradıldı. Ümummilli Liderimiz Naxçıvanda Ali Məclisin Sədri vəzifəsində çalışdığı illərdə mühüm siyasi və ideoloji amilə çevrilən tarixi qərarlar qəbul edib. O, gəlişi ilə Naxçıvana yeni nəfəs gətirdi, ağır blokada şəraitində olmasına baxmayaraq, bu qədim diyarı dirçəltməyə başladı. Burada müasir Azərbaycanın təməli atıldı. Təkcə muxtar respublika üçün deyil, bütün Azərbaycan üçün həyati əhəmiyyət kəsb edən, dövlət quruculuğu prosesində mayak rolunu oynayan qərarların qəbul edilməsinə nail olundu. Həmin illərdə Naxçıvanda baş verənlər ölkə ictimaiyyəti tərəfindən yaxından izlənilirdi. Baxmayaraq ki, mərkəzi hakimiyyət Naxçıvanı "kor bağırsaq" adlandırıb, onu kəsib atmaq istəyir, buradakı hadisələrə laqeyidliklə yanaşırdı. Böyük dövlət xadiminin Naxçıvandakı idarəetmə uğurları isə göz qabağında idi. Və bunu görən xalqımız ölkədəki xaos və anarxiyanı aradan qaldırmaq, Azərbaycan dövlətçiliyini xilas etmək naminə Ulu Öndərin ölkə rəhbərliyinə gətirilməsini tələb etməyə başladı. Bir tərəfdən Azərbaycanın cənnəti Qarabağ düşmən tərəfindən işğal edilir, digər tərəfdən isə Gəncə şəhərində qiyam baş verir və qardaş qardaşa güllə atırdı. Bir sözlə, Azərbaycan məhv olmaq təhlükəsi ilə qarşı-qarşıya qalmışdı. Dahi rəhbər bu acı hadisələrə laqeyd də qala bilməzdi. Necə ki qalmadı... Onun Bakıya qayıdışı xalqın sevincinə səbəb oldu. 1993-cü ilin iyununda paytaxta qayıdan dahi rəhbər oktyabrın 3-də keçirilən prezident seçkisində 97,6 faiz seçici fəallığı ilə səslərin 98, 8 faizini alaraq Azərbaycan Prezidenti seçildi.

### *Ümummilli Liderimiz sovetlər dönəmində yüksək vəzifələrdə çalışdığı illərdə də Naxçıvanı daim diqqət mərkəzində saxlayıb*

SSRİ kimi nəhəng dövlətin rəhbərlərindən biri olan xalqımızın böyük oğlu Heydər Əliyev Moskvada, necə deyərlər, ucu-bucağı görünməyən bir ölkənin problemlərinin həlli ilə

*Ardı 2-ci səhifədə*

məşğul olsa da, bir an belə doğma Naxçıvanı unutmayıb. Azərbaycanda ilk dəfə hakimiyyətə gəldiyi 1969-cu il iyul ayının 14-dən sonrakı dövrdə ölkəmizin, o cümlədən Naxçıvanın inkişafı, gələcəyi ilə bağlı çox mühüm qərarlar qəbul edib. Belə ki, 1970-ci illərə qədər Naxçıvan Azərbaycanın digər bölgələrinə, xüsusən Dağlıq Qarabağ Muxtar Vilayətinə nisbətən xeyli geridə idi və sənaye məhsulunun artım sürətinə görə keçmiş SSRİ-nin muxtar respublikaları arasında axırıncı yerlərdə qərar tuturdu. Bu geriliyin aradan qaldırılmasında və Naxçıvanın inkişaf yoluna çıxmasında Ulu Öndərin birbaşa göstərişi və rəhbərliyi ilə hazırlanmış Azərbaycan KP MK və Azərbaycan SSR Nazirlər Sovetinin "Naxçıvan MSSR-in xalq təsərrüfatının daha da inkişaf etdirilməsi tədbirləri haqqında" 1974-cü il 8 yanvar tarixli birgə Qərarının mühüm rolu oldu. Sənəddə muxtar respublikanın sosial-iqtisadi, mədəni inkişafının təmin edilməsi üçün müvafiq orqanlar qarşısında konkret vəzifələr qoyulub, onların icra müddəti müəyyənləşdirilib. Qərarda nəzərdə tutulmuş bütün vəzifələr vaxtında yerinə yetirilib.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev həmin dövrü dəyərləndirərək deyib: ***"Naxçıvanın inkişafı Ulu Öndər Heydər Əliyevin adı ilə sıx bağlıdır. İlk növbədə, ona görə ki, Naxçıvan Azərbaycan xalqına böyük şəxsiyyət Ulu Öndər Heydər Əliyevi bəxş etmişdir. Ulu Öndər bütün dövrlərdə Naxçıvana böyük diqqət göstərmişdir. 1970-1980-ci illərin əvvəllərində respublikanın sosial-iqtisadi inkişafı üçün çox böyük işlər görmüşdür. O vaxt Azərbaycanın hər bir yerində olduğu kimi, Naxçıvanda da sürətli inkişaf dövrü müşahidə edilirdi. Ulu Öndərin rəhbərliyi ilə Azərbaycan 1980-ci illərin əvvəllərində sovet məkanında ən qabaqcıl yerlərdə idi, o cümlədən Naxçıvanda da böyük sosial quruculuq işləri aparılırdı. Naxçıvanın sənaye potensialı formalaşırdı. Bir sözlə, muxtar respublika öz inkişaf dövrünü yaşayırdı".***

1969-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı üç dəfə yüksəlib. Dahi şəxsiyyət muxtar respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1969-1982-ci illərdə 4 dəfə qədim diyarda səfərdə olub. İlk səfər 1974-cü il fevralın 22-də reallaşıb. Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, daha sonra 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də, 1982-ci il oktyabrın 2-də reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilib, gələcək perspektivə hesablanmış addımlar atılıb. Ümummilli Liderimizin təşəbbüsü və diqqəti sayəsində kompleks tədbirlər həyata keçirilib və nəticədə, 1970-1982-ci illərdə muxtar respublikanın sənaye potensialı, təxminən, üç dəfə yüksəlib. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilib. Bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artıb. Təkcə bunlarla da kifayətlənməyən dahi rəhbər ermənilərin Naxçıvana və Dağlıq Qarabağa iddialarına qarşı ciddi mübarizə aparıb. Təsadüfi deyil ki, Ulu Öndər 1987-ci ilin noyabr ayında rəhbər vəzifədən uzaqlaşdırılandan dərhal sonra Azərbaycanın ağrı-acılarla dolu dövrü başlayıb, meydanı boş görən ermənilər çirkin iddialarını daha yüksək səslə səsləndiriblər. Görkəmli dövlət xadimi Moskvada rahat yaşaya bilərdi. Ancaq O, sakitliyi və rahatlığı deyil, Vətəninin taleyini düşünürdü. Buna görə də O, Vətənə qayıtmaq istəyirdi. Naxçıvanlılar da qədim diyarın yetişdirdiyi böyük dövlət xadiminin gəlişini səbirsizliklə gözləyirdilər.

### *Daim çiçəklənən, inkişaf edən, abadlaşan diyar – dahi şəxsiyyətin arzularındakı Naxçıvan*

Azərbaycan Prezidenti seçilən Ümummilli Liderimiz ölkə başçısı olduğu illərdə də Naxçıvan Muxtar Respublikasından diqqət və qayğısını əsirgəmədi. 1969-cu ildən başlanan quruculuq və inkişaf xətti Naxçıvanda fəal, yaradıcı surətdə davam etdirildi. Bu quruculuq və inkişaf konsepsiyası sonrakı illərdə özünü tam doğrultdu. Fəaliyyətini dayandırmış sənaye müəssisələrinin yenidən işə salınması və yeni müəssisələrin yaradılması sayəsində 1993-2003-cü illərdə muxtar respublikada sənaye məhsulu 3,4 dəfə artdı. Həmin dövrdə 15 inzibati bina, 60 elm və təhsil müəssisəsi, o cümlədən 16 min 38 şagird yerlik 55 ümumtəhsil məktəbi, 43 mədəniyyət obyekti, 28 səhiyyə müəssisəsi, 5 idman obyekti, 24 nasos stansiyası, 135 subartezian quyusu, 34 körpü, 6 ticarət mərkəzi, məcburi köçkün, şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 47 fərdi ev, 123 istehsal və xidmət obyekti tikilərək istifadəyə verildi. Ümumi daxili məhsulunun həcmi 6,8 dəfə, əhalinin gəlirləri isə 10,5 dəfə artdı. Bütün bu misilsiz nailiyyətlərin hamısı böyük dövlət xadimi Heydər Əliyev siyasətinin böyük uğurlarının, sadəcə, bir hissəsidir. Bu möhtəşəm təlim sabahkı uğurlarımızın da etibarlı qarantına çevrildi. Azərbaycanın özü kimi əbədi olan Heydər Əliyev ideyaları yolumuzu işıqlandıran sönməz məşələ çevrildi. Həmin illərdə qədim diyarda aparılan kompleks quruculuq işləri ilə yaxından tanış olmaq, bir sıra sosial, ictimai obyektlərin açılışında iştirak etmək üçün 4 dəfə Naxçıvan Muxtar Respublikasına səfər etdi. Birinci səfər 1996-cı il oktyabrın 29-da, ikincisi 1999-cu il oktyabrın 10-da, digərləri isə 2002-ci ilin iyunun 15-də və həmin il avqustun 10-da reallaşdı.

Bu gün dövlətimizin başçısının böyük diqqət və qayğısı, fədakar naxçıvanlıların gərgin zəhməti nəticəsində muxtar respublikanın kənd, qəsəbə və rayon mərkəzlərinin 90 faizə yaxını artıq ən yüksək səviyyədə yenidən qurulub, abadlaşdırılıb. Muxtar respublikamızın bütün bölgələrində vüsət alan geniş quruculuq prosesləri ucqar dağ kəndlərinin, sərhəd yaşayış məntəqələrinin də simasını dəyişib. Muxtar respublika sakinləri şəhərlərimizin, kəndlərimizin abadlaşdırılması, yeni-yeni gözoxşayan binaların, sosial obyektlərin inşa edilməsi istiqamətində görülən işləri Ulu Öndərimizin siyasi xəttinin bəhrələri kimi dəyərləndirir, daim bu siyasi xəttə sadiqlik nümayiş etdirirlər.

### *Zəngəzur dəhlizinin açılması Naxçıvanın inkişafına əvəzolunmaz töhfə verəcək*

Xalqımızın Ümummilli Liderinin ***"Mən Ona özüm qədər inanıram. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri İlham Əliyev başa çatdıra biləcək"*** kəlamının deyildiyi vaxtdan cəmi 18 il sonra zaman bir daha böyük Heydər Əliyevin – o siyasət dahisinin bütün bəlalardan xilas edərək ayağa qaldırdığı Azərbaycanı əmin əllərə təslim etdiyini təsdiqlədi. Xalqına arxalanan Müzəffər Sərkərdə dünyaya qüdrətli ordusu, yenilməz siyasi-diplomatik gücü ilə meydan oxudu. Ulu Öndərimizin əsasını qoyduğu siyasətin, nurlu yolun uğurla davam etdirilməsi bizə Vətən müharibəsində Böyük Qələbəni bəxş etdi, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında rəşadətli Ordumuz düşmənə sarsıdıcı zərbə vurdu, müstəqil dövlətimizin ərazi bütövlüyü bərpa olundu. Azərbaycan Prezidenti Naxçıvan Muxtar Respublikasının blokadadan azad edilməsi istiqamətində çox önəmli və tarixi bir məsələnin həllini təmin edərək 2020-ci il noyabrın 10-da imzalanmış birgə Bəyanata qədim diyarla bağlı xüsusi bir maddəni – 9-cu bəndi salmaqla önümüzdəki illərdə muxtar respublikanın beynəlxalq nəqliyyat dəhlizinə çevrilməsinə şərait yaratdı. Zəngilandan Naxçıvana dəmir yolu xəttinin və avtomobil magistrallarının tikintisi muxtar respublikada transmilli nəqliyyat proqramlarının və layihələrinin reallaşdırılmasına şərait yaradacaqdır ki, bu da qədim diyarın geostrateji əhəmiyyətini daha da artırmaqla yanaşı, bir sıra mühüm məsələlərdə böyük nailiyyətlər qazanmağa səbəb olacaq. Belə ki, Zəngəzur dəhlizinin açılması ilə Naxçıvan həm də bizim üçün Avropaya qapı, Türk dünyası üçün isə ümid bağına çevriləcək. Bütün bunlar Ali Baş Komandanımızın dəmir iradə nümayiş etdirməsinin nəticəsidir. Naxçıvan Muxtar Respublikası ölkəmiz üçün, ümumilikdə, bütün Türk dünyası üçün çox böyük geostrateji əhəmiyyətə malik mühüm məkandır. Təsadüfi deyil ki, dahi şəxsiyyət Ümummilli Liderimizin düşünülmüş və uzaqgörən siyasətində də bu amil həmişə üstün yer tutub, müdrik dövlət xadimi siyasi fəaliyyətinin ayrı-ayrı dövrlərində həmişə Naxçıvanın təhlükəsizliyinin möhkəmlənməsinə və dayanıqlı inkişafına xüsusi diqqət və qayğı göstərib. Bu gün Ulu Öndərimizin işıqlı yolu Azərbaycan Prezidenti cənab İlham Əliyev tərəfindən böyük nailiyyətlərlə davam etdirilir. Ötən ilin son günlərində ölkə başçısının muxtar respublikamızda apardığı islahatlar da buna əyani sübutdur. Bu isə bir daha deməyə əsas verir ki, Naxçıvan bundan sonra da inkişafı ilə yeni-yeni zirvələr fəth edəcək. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəflinin altıncı çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin yanvarın 10-da keçirilən doqquzuncu sessiyasında səsləndirdiyi ***"Bu gün dövlət başçısının Zəngəzur dəhlizinin açılması ilə bağlı qətiyyətli mövqeyi və uzaqgörən siyasəti Azərbaycanın Avropanın və Asiyanın əsas geoiqtisadi mərkəzi kimi əhəmiyyətini artırır, regional iqtisadi şaxələndirmələrdə milli maraqlarımıza uyğun yeni yanaşmalar ortaya qoyur. Sözsüz ki, Zəngəzur dəhlizinin ən mühüm əhəmiyyəti Naxçıvan Muxtar Respublikası ilə ölkəmizin digər iqtisadi rayonları arasında birbaşa əlaqənin təmin etməsi olacaqdır. Bununla da Naxçıvan Muxtar Respublikasının iqtisadi-tranzit əhəmiyyəti daha da artacaq, yeni inkişaf istiqamətləri müəyyənləşdiriləcəkdir"*** fikirləri yurdumuzun daha da gözəl sabahlara addımladığından xəbər verir.

*Hələ uşaq ikən ilk dəfə Onu gördüyüm o günlərdən illər keçib, mən də bu Vətənin digər bəxtəvər övladları kimi yurdumuzda, Vətənimizdə dahi rəhbərin qurub-yaratdıqlarını görə-görə yaşadım, böyüdüm. Gözümüzün önündə yenidən quruldu yaşadığımız kəndlər, şəhərlər. Abadlaşdı, gözəlləşdi. Çox xoşbəxtəm ki, bunlara şahidlik etməklə yanaşı, onları qələmə də ala bilmək şərəfinə nail olmuşam. Həqiqət budur ki, mənin kimi yüzlərlə insanın dahi rəhbərə olan məhəbbəti, Onun Vətənimiz üçün gördüyü işlər nə məqalələrə, nə kitablara sığmaz. Çünki O, bir əbədi dastandır. Xalqının ürəyində yer alan dastan. Min illər keçsə də, yaddaşlara, ürəklərə həkk olunan, nəsillərdən-nəsillərə yadigar qalacaq dastan.*

✍ **Ramiyyə ƏKBƏROVA**

## *"Ümummilli Lider Heydər Əliyevin söz azadlığı modeli"* mövzusunda tədbir olub



*"Heydər Əliyev İli" tədbirləri çərçivəsində Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Naxçıvan Dövlət Universiteti və "Şərq qapısı" qəzeti ilə birgə 3 may – Ümumdünya Mətbuat və Söz Azadlığı Günü münasibətilə "Ümummilli Lider Heydər Əliyevin söz azadlığı modeli" mövzusunda tədbir keçirib.*

Tədbir iştirakçıları əvvəlcə görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsini ziyarət edib, Ulu Öndərə ehtiramlarını bildirərək abidə önünə gül dəstələri qoyublar. Sonra Heydər Əliyev Muzeyi ilə tanışlıq olub.

Naxçıvan Dövlət Universitetində keçirilən tədbirdən əvvəl Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ümummilli Liderin və şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib, görkəmli dövlət xadiminə həsr olunmuş videoçarx izlənilib.

Tədbiri giriş sözü ilə açan universitetin rektoru, dosent Elbrus İsayev 3 may – Ümumdünya Mətbuat və Söz Azadlığı Günü münasibətilə iştirakçıları təbrik edib. Bildirib ki, ölkəmiz prioritet hesab olunan söz azadlığının, demokratiyanın inkişafı, hüquqi dövlətin qurulması sahəsində böyük və uğurlu yol keçib. Ümummilli Lider Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışından sonra ölkədə müstəqil mətbuat inkişaf edib, söz və məlumat azadlığının yüksək səviyyədə təmin olunması istiqamətində ardıcıl, məqsədyönlü tədbirlər həyata keçirilib. Bu istiqamətdə ən mühüm nailiyyətlərdən biri ölkəmizin kütləvi informasiya vasitələri sahəsində milli qanunvericilik bazasının formalaşmasıdır. Respublikamızda bu prosesin əsası Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə qoyulan,



1995-ci ildə qəbul olunan Konstitusiyaya söz və məlumat azadlığı ilə bağlı mütərəqqi müddəalar daxil edilib, bununla da medianın hərtərəfli inkişafı üçün əlverişli zəmin yaradılıb.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Günay Rzayeva bildirib ki, Ulu Öndərin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı", həmçinin 1998-ci il 6 avqust tarixdə imzaladığı "Azərbaycan Respublikasında söz, fikir və mətbuat azadlığının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərman söz, fikir və mətbuat azadlıqlarının təminatına əlverişli şərait yaratdı. 2001-ci ildə isə Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması dövlətin mətbuat üzərində nəzarətinə tamamilə son qoydu.

Vurğulanıb ki, 1999-cu ildə "Kütləvi informasiya vasitələri haqqında" Azərbaycan Respublikasının Qanununun, sonrakı dövrlərdə isə "Vətəndaşların müraciətlərinə baxılması qaydası haqqında", "Məlumat azadlığı haqqında", "İnformasiya, informasiyalaşdırma və informasiyanın mühafizəsi haqqında", "Ətraf mühitə dair informasiya almaq haqqında" Azərbaycan Respublikasının qanunlarının qəbul edilməsi də kütləvi informasiya vasitələrini cəmiyyətin dinamik şəkildə demokratikləşməsinə təsir edən qüdrətli vasitəyə çevirdi. Ulu Öndərin 2000-ci il 6 mart tarixli Sərəncamı ilə təsdiq edilən "2000-2001-ci illərdə kütləvi informasiya vasitələrinin maddi-texniki şəraitinin yaxşılaşdırılması üçün Tədbirlər Proqramı" isə bu sahənin maddi-texniki bazasının gücləndirilməsində mühüm rol oynadı.

Tədbirdə "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Mehriban Sultanova "Şərq qapısı" qəzeti Ümummilli Lider Heydər Əliyev siyasi fəaliyyətinin Naxçıvan dövründə" adlı məruzə ilə çıxış edib. Bildirib ki, xalqımızın böyük oğlu Heydər Əliyevin Moskvadan Naxçıvana qayıdaraq burada yaşayıb fəaliyyət göstərdiyi, muxtar respublikaya rəhbərlik etdiyi 1990-1993-cü illər dövlət müstəqilliyinin bərpa və bərqərar olması dövrü kimi xarakterizə olunur. Ulu Öndərin rəhbərliyi altında milli dövlətçiliyimizin bərpası ilə bağlı Naxçıvan parlamentində qəbul edilən tarixi siyasi qərarlar ilk olaraq məhz "Şərq qapısı" vasitəsilə geniş oxucu kütləsinə, ölkə ictimaiyyətinə çatdırılmışdır.

Çıxışda Ümummilli Liderimizin Vətənə qayıtdıqdan sonra Azərbaycan mətbuatında ilk olaraq məhz "Şərq qapısı" qəzetinin 26 iyul 1990-cı il tarixli nömrəsində dərc olunan "Daha susa bilməzdim" adlı müsahibəsindən bəhs olunub. Bildirilib ki, Azərbaycan Respublikası Ali Sovetinin 1991-ci il 29 avqust tarixli sessiyasında xalq deputatı Heydər Əliyevin Azərbaycan Kommunist Partiyasının diktatura rejimi, "Azərbaycanın Müstəqillik Bəyannaməsi" ilə bağlı cəsarətli çıxışını o dövrdə heç bir mətbuat orqanının dərc etməyə cəsarəti çatmadığı halda, məhz "Şərq qapısı" geniş oxucu kütləsinə çatdırmışdır.

Qeyd olunub ki, Ümummilli Lider Heydər Əliyevin Moskvadan Naxçıvana tarixi qayıdışı, buradakı siyasi fəaliyyəti ölkə və dünya ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin diqqətini muxtar respublikaya yönəltmiş, Ulu Öndərin tanınmış mətbuat orqanlarına verdiyi müsahibələrin tərcüməsi "Şərq qapısı" qəzetində də dərc edilmiş, dövrün ən aktual və böyük maraqla oxunan materiallarından olmuşdur.

Diqqətə çatdırılıb ki, Ümummilli Lider Heydər Əliyev Naxçıvandakı siyasi fəaliyyəti dövründə sosial-iqtisadi problemləri aradan qaldırmaqla yanaşı, həm də böyük siyasi uzaqgörənliklə Naxçıvanın informasiya blokadasının yarılması istiqamətində də mühüm işlər görmüşdür. Ümumiyyətlə, Ulu Öndərin siyasi fəaliyyətinin Naxçıvan dövrünü, 1990-1993-cü illərdə Azərbaycanda baş verən ictimai-siyasi prosesləri, xalqımızın milli müstəqillik uğrunda mübarizə hərəkatını öyrənmək üçün "Şərq qapısı" ideal mənbədir.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Televiziya və Radio Şurasının sədri Rauf Əliyev "Heydər Əliyev və Azərbaycanda medianın inkişafı", Naxçıvan Mətbuat Şurasının sədri Rövşən Hüseynov, "Müstəqil mətbuatın formalaşmasında Ümummilli Lider Heydər Əliyevin rolu" mövzusunda çıxış ediblər.

✍ **Muxtar MƏMMƏDOV**

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş tədbirlər keçirilib



Əlahiddə Ümumqoşun Ordunun Xüsusi Təyinatlıları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi münasibətilə Haçadağa yürüş edib.

Culfa rayonunun Gal kəndindən hündürlüyü 2415 metr olan Haçadağın zirvəsinə qalxan hərbi qulluqçularımız Ulu Öndər Heydər Əliyevin və Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini yad edib, Azərbaycan Respublikasının üçrəngli bayrağını dalğalandırıb və Dövlət Himnimizi səsləndiriblər.

Sonda xüsusi təyinatlılar Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyini tərənnüm edən lövhəni qaya üzərində bərkidiblər.

* * *

Ümummilli Liderimiz Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə "Naxçıvanpoçt" publik hüquqi şəxsin əməkdaşları əvvəlcə dahi şəxsiyyətin Naxçıvan şəhərində əzəmətlə ucaldılan abidəsi önünə gül dəstələri düzüb, öz ehtiramlarını ifadə ediblər. Sonra Heydər Əliyev Muzeyi ziyarət olunub.



Muzey bələdçisi məlumat verib ki, Heydər Əliyev Muzeyi 1999-cu il mayın 10-da 420 eksponatla fəaliyyətə başlayıb. Bu, Ümummilli Liderimizin şərəfinə Azərbaycan Respublikasında yaradılmış ilk muzeydir. Bu mədəniyyət müəssisəsinin ölkəmizin digər bölgələrindəki muzeylərdən fərqli cəhəti ondadır ki, Ulu Öndərimizin anadan olduğu, boya-başa çatdığı, əmək fəaliyyətinə başladığı torpaqda yaradılıb, eyni zamanda dahi şəxsiyyətin haqqında çox nadir materiallarla, eksponatlarla kifayət qədər zəngindir. Muzeyin fondunda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 5 mindən çox eksponat toplanıb.

Qeyd edilib ki, muzey Ümummilli Liderimizin həyat və fəaliyyətinin, ictimai-siyasi, elmi-nəzəri, dövlətçilik irsinin, Azərbaycançılıq məfkurəsinin öyrənilməsi, elmi cəhətdən araşdırılıb təbliğ edilməsi və gələcək nəsillərə çatdırılması kimi şərəfli bir vəzifəni həyata keçirir. Əksəriyyəti ilk dəfə olaraq bu muzeydə nümayiş olunan sənədlər, materiallar yorulmaq bilməyən görkəmli şəxsiyyətin, böyük azərbaycanlının həyat salnaməsini – uşaqlıq və gənclik, təhsil aldığı illərdən, rəhbər vəzifələrdə çalışdığı dövrlərdə çoxcəhətli şərəfli və mürəkkəb vəzifələrin yerinə yetirilməsindən bəhs edir.

Naxçıvan Şəhər İcra Hakimiyyətinin təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illiyi münasibətilə silsilə tədbirlər keçirilir. Bu tədbirlərin davamı olaraq şəhid ailələri və qazilərin iştirakı ilə Heydər Əliyev Muzeyi ziyarət olunub.

Tədbir iştirakçıları əvvəlcə dahi şəxsiyyətin baş meydanda əzəmətlə ucalan abidəsini ziyarət edib, ehtiramlarını bildiriblər.



Sonra muzeylə tanışlıq olub. Bildirilib ki, Heydər Əliyev Muzeyi 1999-cu il may ayının 10-dan fəaliyyət göstərir. Ümummilli Liderin sağlığında yaradılan muzeydə Ulu Öndərin həyatının müxtəlif dövrlərinə həsr olunmuş eksponatlar, eləcə də dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində işlədiyi dövrdə qəbul etdiyi müxtəlif tarixi sənədlər toplanıb.

Qeyd olunub ki, müdrik rəhbər xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi-iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində qurulmuş müstəqil Azərbaycan dövlətini miras qoyub. Böyük siyasi xadim Heydər Əliyev xalqımız qarşısında misilsiz xidmətləri ilə bu gün hər birimizin qəlbində yaşayır. Dahi rəhbərin Vətənimizin suverenliyi, ölkəmizin düşdüyü bəlalardan xilası, Azərbaycanın inkişafı naminə mübarizədə əvəzolunmaz xidmətləri Onu hələ sağlığında xalqımızın Ümummilli Liderinə çevirib.

O da vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin hər iki dövründə milli hərbi kadrların hazırlanmasını, Silahlı Qüvvələrin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsini daim diqqətdə saxlayıb. Bu siyasəti davam etdirən Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə müzəffər Ordumuz torpaqlarımızı işğaldan azad edib.

* * *



*Naxçıvan Muxtar Respublikası Dövlət Baytarlıq Xidmətində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən tədbirdə, əvvəlcə dahi rəhbərin abidəsi ziyarət olunub, önünə gül dəstələri düzülüb. Sonra Heydər Əliyev Muzeyinə baxış olub. Tədbir iştirakçılarına muzeyin ekspozisiyaları, eksponatları haqqında ətraflı məlumat verilib.*

Dövlət Baytarlıq Xidmətində keçirilən tədbirdə isə ilk olaraq Dövlət Himni səsləndirilib, ardınca dahi siyasi xadim Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda canlarını qurban vermiş qəhrəmanlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə xidmətin rəisi Vəli Novruzov açıb. Diqqətə çatdırılıb ki, 90-cı illərin əvvəllərində Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumun ağırlığı, torpaqlarımızın işğal təhlükəsi ilə üz-üzə qalması ölkəmizin taleyini olduqca mürəkkəbləşdirmişdi. Belə bir şəraitdə xalqın təkidli tələbi ilə hakimiyyətə gələn Ulu Öndər Heydər Əliyevin gərgin fəaliyyəti və səyləri sayəsində ölkəmizdə, eləcə də muxtar respublikada sabitlik təmin edildi və ölkəmizin sosial-iqtisadi vəziyyəti yaxşılaşdırıldı. Ümummilli Liderimizin uğurlu siyasəti nəticəsində müharibənin davam etdiyi, sənaye məhsullarının çatışmadığı, elektrik enerjisinin olmadığı ölkəmiz tezliklə sabitlik və dinamik inkişafa qədəm qoydu. Həmçinin ərzaq böhranı, işsizlik aradan qaldırıldı, ən əsası isə torpaqlarımızın işğalının qarşısı alındı.

Vurğulanıb ki, Ulu Öndərin ideyaları, amalları bu gün Azərbaycan Respublikasının həyatına nur çiləyir. Dünya dövlətləri sırasında layiqli yer tutan ölkəmizdə Ümummilli Liderimiz tərəfindən müəyyənləşdirilən inkişaf xətti cənab İlham Əliyev tərəfindən uğurla icra olunur. Məhz dahi siyasi xadimin müəyyənləşdirdiyi dövlətçilik xəttinə sadiqlik nümunəsidir ki, bu gün Vətənimiz tarixi taleyinin ən parlaq və nurlu dövrünü yaşayır.

**Xəbərlər şöbəsi**

Təhsil millətin gələcəyidir

# Gələcəyin istedadlı mühəndisləri həm də Vətənimizin işıqlı sabahıdır

## *Naxçıvan Dövlət Universitetinin "NSUTECH" komandası "Robotex Türkiyə 2023" festivalının qalibi olub*

*Çağdaş dünya təhsil siyasətində yenilikçi ideyalar, innovativ dəyişikliklər hər ötən gün daha da artır, istənilən inkişaf etmiş ölkənin siyasətində təhsilin yeni və yaradıcı fəaliyyət modeli zamanın əsas tələbi kimi diqqəti cəlb edir. Sevindirici haldır ki, bu gün ölkəmizin nail olduğu sosial-iqtisadi inkişaf təhsil sahəsinə də öz bəhrəsini verib. Nəticədə, ictimai-sosial həyatın bütün sahələrində, ən əsası isə ali təhsil ocaqlarımızda innovasiya fəaliyyətinin genişləndirilməsi, həmçinin süni intellekt nəzəriyyəsinə əsaslanan biliklərin tətbiqinin sürətləndirilməsi məqsədilə ardıcıl tədbirlər görülüb. Sözügedən tədbirlərin davamı kimi ali təhsil ocaqlarımızda gələcəyin mütəxəssislərinin texnologiya sahəsinə marağını artırmaq, bu sahədəki məlumatlılığını təmin etmək, onların əldə etdikləri bilik və bacarıqlarla robot modellərin – robotexnikaların yaradılması və dizaynı, proqramlaşdırılması, idarə edilməsi metodlarını öyrətmək istiqamətində uğurlu layihələr icra olunur.*

Naxçıvan Dövlət Universitetinin beş nəfərdən ibarət gənc nümayəndəsinin Vətənimizi, muxtar respublikamızı qardaş Türkiyə Respublikasının Antalya şəhərində keçirilən ən böyük robotexnika festivalında təmsil etməsi də məhz icra olunan məqsədyönlü layihələrin bəhrəsidir. "Robotex Türkiyə 2023" mövsümünün sonunda bir neçə ölkənin, o cümlədən Azərbaycan, Türkiyə, Estoniya, İran və digər ölkələrin təmsil olunduğu turnirlərdə həmin nümayəndə heyəti I yerin qalibi kimi Naxçıvana qayıdıb. Fürsətdən istifadə edərək doğma universitetimizi təmsil edən və festivaldan qalibiyyətlə qayıdan bir neçə iştirakçı ilə həmsöhbət olduq.

***Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsi Meliorasiya və ekologiya kafedrasının müəllimi Hüseyn İmanov*** öz təəssüratlarını bizimlə belə bölüşdü: – Çox sevindirici haldır ki, Naxçıvan Dövlət Universitetindən göndərilən "NSUTECH" komandasının tərkibində Azərbaycanı dünyanın ən böyük robotexnika festivalı olan "Robotex Türkiyə 2023" sezonunda təmsil edib, 7 kateqoriyalı turnirdə "Sahibkarlıq mübarizəsi – Universitet" kateqoriyası üzrə 1-ci yeri tutaraq "Sağlamlıq elmləri və texnologiyaları" və "Proqram texnologiyaları" üzrə mükafata layiq görüldük. Bir neçə ay ərzində bu layihəyə komandamızın tərkibindəki fəal tələbələrlə birgə hazırlaşarkən çox həyəcanlı idik. Ən önəmli hissə isə hansı layihəmizlə qoşulmağı qərarlaşdırdığımız mərhələ oldu. Festivalda Azərbaycan, Türkiyə, Estoniya, İran və digər ölkələrdən 35 min iştirakçı öz hazırladıqları 1750 robotla birgə müxtəlif yarışlar üçün robotlar yaratmaq və qabaqcıl yenilikləri öyrənmək üçün bir araya gəlmişdirlər. Rəqiblərimizin çox güclü olacağını bilirdik. Bütün çətinliklərə baxmayaraq, komandamızda ruh yüksəkliyi daim çox yüksək idi. Ən əsası isə özümüzə inanırdıq. Tək məqsədimizə çatmaq – ölkəmizin bayrağının dünyanın ən böyük robotexnika festivalında dalğalanması və himnimizin səsləndirilməsi bizim üçün ən qürurverici anlardan biri oldu. Bir an belə yorulmadan, bezmədən çıxdığımız bu yoldan uğurla qayıdaraq başda ailə üzvlərimiz olmaqla bizə güvənən və heç zaman dəstəyini əsirgəməyən şəxslərin və Naxçıvan Dövlət Universitetinin kollektivinin inamını bir daha doğrultmuş olduq. Qardaş ölkə Türkiyədə mənimlə birgə Vətənimizi təmsil edən hər bir "NSUTECH" komandasının üzvünü təbrik edir, uğurlarımızın daim olmasını arzu edirəm.





Festivalın fəal iştirakçılarından olan ***universitetin Tibb fakültəsinin II kurs tələbəsi Əli Ələkbərli*** də öz fikirlərini bizimlə bölüşdü: – Dünyanın bir neçə ali təhsil ocağının tələbələrinin iştirak etdiyi belə bir layihədə qalib olmaq, düşünürəm ki, hər bir kəsin, ələlxüsus da, gələcəkdə bilikli mütəxəssis adını qazanmaq istəyən tələbələrin arzusudur... İstərdim, festivalda birinciliyə layiq görülmüş layihələrimizin bir istiqaməti barədə məlumat verim: "Sağlamlıq elmləri və sağlamlıq texnologiyaları" adlı layihəmizdə, əsasən, elektrokardioqram cihazlarının fəaliyyəti barədə tezislər irəli sürdük. Bu da kardioloq-cərrahların işini asanlaşdırmaq, ürək xəstəliyindən həyatı risk altında olan xəstələrə kömək etmək, o cümlədən cərrahlarımızın vaxt itkilərini minimuma endirmək kimi əsas məqsədlərə xidmət edir. Həmin qurğunun iş texnologiyası isə tamamilə müasir tələblərə cavab verən süni intellektə əsaslanır. Belə ki, cihazın funksiyasına əsasən artıq həkimlərimiz ürək xəstəliyindən əziyyət çəkən xəstələri müayinə etmək üçün elektrokardioqram qurğularından istifadə edə biləcəklər. Bununla belə cihazlarda olan yüksək siqnalizasiya sistemi ilə xəstənin səhhətində baş verəcək ən adi bir narahatlıq – ürək döyüntülərinin artması və azalması, oksigen çatışmazlığı, təzyiq və digər problemlər bu vasitə ilə həkimə məlumat verəcəkdir. Dəqiq müayinə imkanlarına malik olacaq bu cihaz ölüm risklərinin azalmasında kardioloq-cərrahlarımızın, necə deyərlər, "əlindən tutacaqdır".

***Universitetin Ekologiya ixtisası üzrə II kurs tələbəsi Abdulla Kərimli***nin dediklərindən: – Biz beş nəfərdən ibarət heyət olaraq 2 aydan artıq bir zamanda bu festivala hazırlaşmışdıq. Festivalda üstünlüyü tibb sahəsi üzrə layihələrin icrasına vermişdik. Bu istiqamətdə atdığımız bir digər addım isə insanların, ələlxüsus da ki, ahılların köməyinə çatacaq kiçik, daşına bilməsi asan olan elektron sağlamlıq qurğularının yaradılması oldu. Əsas məqsəd də o idi ki, səhhətində narahatlığı olan insanlar bu qurğular vasitəsilə həyatlarını, sağlamlıqlarını bir növü qoruma altına alaraq səhhətlərində yaranan hər hansı problemə anında müdaxilə edə bilərlər. Siqnal sistemi ilə işləyəcək bu texnologiyaların üstünlüyü yerindəcə mütəxəssisə, həkimə xəbərdarlığın edilməsidir. İnanırıq ki, bu qurğuların mövcud olacaq imkanları insanlara daha çox xidmət edəcəkdir.

*Ölkə Prezidenti cənab İlham Əliyevin təhsil sahəsinə göstərdiyi diqqət və qayğı nəticəsində son illər təhsil tariximizdə yüksək inkişaf, bütün sahələrdə islahatların daha da dərinləşməsi dövrü kimi xarakterizə olunur, təhsil sektorunun inkişafı dövlət siyasətinin əsas prioritetlərindən biri kimi nəzərə alınır. Bunun nəticəsidir ki, istedadlı, potensiallı gənc kadrlarımız gələcəyin bilikli mütəxəssisi kimi yetişməklə qalmır, həm də ölkəmizə başucalığı gətirir, qürur hissi yaşadırlar. Biz də Vətənimizi parlaq şəkildə təmsil edən qalib gənclərimizə uğurlar, müvəffəqiyyətlər arzu edirik.*

**Məcid RƏŞADƏTOĞLU**

## Baramaçılığın və digər ənənəvi sahələrin inkişafı hədəf seçilib



Naxçıvan Muxtar Respublikası kənd təsərrüfatı nazirinin müavini, nazir vəzifəsini müvəqqəti icra edən Xəyalə Dadaşovanın iştirakı ilə Ordubad rayonunda təsərrüfat sahibləri ilə görüş keçirilib, rayonda kənd təsərrüfatının mövcud vəziyyəti müzakirə olunub. Müzakirələr zamanı qədim ənənəvi məşğuliyyət növləri gündəmə gətirilib. X.Dadaşova rayon üçün xüsusi əhəmiyyət daşıyan heyvandarlıq və bitkiçiliyin inkişafının önəmli olduğunu deyib. Ordubad əhalisinin qədim ənənəvi məşğuliyyət sahəsi olan baramaçılığın bərpasının inkişaf etdirilməsinin prioritet olduğunu və bu istiqamətdə mühüm işlərin görüldüyünü bildirib. O, baramaçılıqla yanaşı, arıçılıq sahəsində də müvafiq tədbirlərin görüldüyünü və arıçılara dəstək məqsədilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 sentyabr tarixli 400 nömrəli Qərarı ilə təsdiq edilmiş "Arıçılıqla məşğul olan fiziki və hüquqi şəxslərə saxladıqları hər arı ailəsinə (pətəyə) görə subsidiya verilməsi Qaydası"nın tələblərinə əsasən 2018-ci ildə fəaliyyət göstərən arıçılara ödənilməyən subsidiyaların cari ildə verilməsinin təmin olunacağını qeyd edib.

Nazir müavini bitkiçiliklə bağlı Ordubad əriyinin, limonunun və digər quru meyvələrin tək Azərbaycanda deyil, bir sıra ölkələrdə artıq tanındığını və həmin məhsulların ixrac potensialının artırılmasının baş tutacağı halda, digər Ordubad məhsullarının da ixrac coğrafiyasının genişləndirilməsinə təkan verəcəyini vurğulayıb.

Görüşün sonunda rayon ərazisində yerləşən çoxillik əkmələrin, həmçinin yeni salınmış "Azərbaycan-Türkiyə İpək Bağı"nın ilkin fitosanitar vəziyyəti qiymətləndirilib, daha sonra uzun illər fəaliyyət göstərməyən, yararsız hala düşmüş Ordubad Barama Toxumu Zavoduna, o cümlədən baramaqurutma, baramaaçma və ipək istehsalı istiqamətli fabrikə baxış keçirilib.

***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin mətbuat xidməti***

## Səmərəli əkinlərdən, suvarma metodlarından istifadə aktual məsələdir...

*Dünyada müşahidə olunan qlobal iqlim dəyişiklikləri, temperaturun yüksəlməsi, əsasən, qonşu ölkələrdən daxil olan yerüstü su ehtiyatlarının, çaylarda sululuğun, yağıntıların xeyli azalması, digər tərəfdən əhalinin sürətli artımı, iqtisadiyyatın, kənd təsərrüfatı sahələrinin inkişafı Azərbaycanda içməli və suvarma suyunun getdikcə tükənməsinə yol açmaqla təxirəsalınmaz tədbirlərin görülməsini zəruri edir. Artıq 3 il bundan öncə, daha dəqiq desək, 2020-ci il 15 aprel tarixdə dövlətimiz tərəfindən bu istiqamətdə mühüm addım atılıb. Belə ki, Prezident cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə su ehtiyatlarından səmərəli istifadənin təmin edilməsi, su təsərrüfatının idarə olunmasının təkmilləşdirilməsi və bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə komissiya yaradılıb, komissiyaya su təsərrüfatı üzrə idarəetmədə sahələrarası koordinasiyanın zəif, sudan istifadədə isə itkilərin yüksək olması kimi problemlərin həlli istiqamətində tədbirlərin görülməsi tapşırılıb.*

Nəzərə alsaq ki, ölkəmizdə son illərdə aqrar sahənin inkişafına həm hökumət, həm də əhali tərəfindən böyük diqqət yönəldilib, ilboyu minlərlə hektar ərazidə əkin-biçin işləri aparılır, o zaman daha çox su sərfiyyatının yarandığı suvarmada israfçılığın qarşısının alınması üçün əsas şərtlərdən biri kimi, səmərəli metodların tətbiqi ön plana çıxır. Digər tərəfdən suvarma prosesində ədalətli bölgünün təmin edilməsi də həm məhsuldarlıq, həm də suya qənaət baxımından olduqca vacib məsələdir. Dövlət başçısı da məhz çıxışlarının birində bu məsələlərə toxunaraq deyib: ***"...Bəzi su anbarlarından çıxan boru xətlərində, yaxud da su anbarlarına digər su anbarlarından daxil olan boru xətləri boyunca qanunsuz qoşmalar var. Yəni bu indi aşkar olunubdur. Çünki heç kimin vecinə deyildi, heç kimin məsuliyyətinə aid deyildi. Ona görə bu qanunsuz qoşmalar, əlbəttə, suyun ədalətli bölgüsünə də ziyan vurur. Aydın məsələdir ki, təsərrüfat sahibləri bu sudan istifadə edirlər. Amma o birilərinə çatmır, bir də ki, israfçılığa yol verilir. Bəzi əkin sahələrində o qədər su verilir ki, buna ehtiyac yoxdur. Ona görə burada vahid idarəetmə mexanizmi işlənməlidir..."***

Ölkəmizin kənd təsərrüfatı sürətli inkişaf etmiş iqtisadi rayonlarından hesab olunan Naxçıvanda da son illərdə əkinçiləri ən çox narahat edən məqamlar sırasında suvarma suyunun tələbatı ödəməməsi öndə gəlir. Məhz muxtar respublika Nazirlər Kabinetinin 2023-cü il 9 mart tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında içməli və suvarma sularının böhranlı vəziyyətində idarə olunmasına dair Tədbirlər Planı"nda nəzərdə tutulan icrası vacib işlər həm dövləti, həm də əhalini düşündürən sözügedən aktual məsələnin həlli yollarının tapılması üçün geniş imkanlar açır. Bu mühüm əhəmiyyətli dövlət sənədinin suvarma su təchizatı ilə bağlı hissəsinə nəzər yetirdikdə qarşıya qoyulan vəzifələr sırasında quraqlığa davamlı bitki sortlarının əkilməsinin təbliği və dəstəklənməsi, kənd təsərrüfatı məhsullarının istehsalı zamanı suvarmada elmi yanaşmanın və innovativ texnologiyalardan (çiləmə, pivot, damcı və qapalı) istifadənin təşviqi xüsusilə diqqət çəkir. Bu sahədə mövcud vəziyyət, əkinçilikdə su ehtiyatlarından səmərəli istifadə ilə bağlı görülən və görüləcək işlər barədə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin müdiri ***Niyamət İsayev***lə söhbət etdik. Niyamət müəllim qeyd etdi ki, tarixən aqrar region kimi tanınan, şöhrət qazanan Naxçıvanın hazırda 178 min 73 hektar əkinəyararlı torpağı vardır ki, onun 64 min 724 hektarı əkin altındadır. Təbii ki, yüksək məhsuldarlığın əldə olunmasında lazımi texnika, kerfiyyətli toxum sortları, düzgün aqrotexniki qulluq, gübrə, dərmanlarla yanaşı, suvarma prosesinin səmərəli idarə edilməsi də olduqca vacib şərtdir.



Həmsöhbətim dedi: – Son illərdə dünyada baş verən su qıtlığı, quraqlıq halları, heç şübhəsiz, ilboyu günəşli günlərin daha çox olduğu ölkəmizə, muxtar respublikamıza da təsirsiz ötüşmür. Məhz bu baxımdan ölkəmizdə həyata keçirilən vahid dövlət siyasətinə uyğun olaraq Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti tərəfindən içməli və suvarma sularında səmərəli istifadəyə dair Tədbirlər Planı hazırlanıb, bir sıra təşkilatlar qarşısında aidiyyəti vəzifələr qoyulub. Kənd Təsərrüfatı Nazirliyinin əməkdaşları olaraq biz də, ümumən, ölkəmiz, dövlətimiz üçün vaciblik daşıyan, əhəmiyyət kəsb edən Tədbirlər Planında nəzərdə tutulan həll variantlarının effektivliyinə nail olmaq üçün çalışırıq. Söhbət əgər əkinçilikdə suvarma suyuna qənaətdən, səmərədən gedirsə, onu deyə bilərəm ki, artıq bir neçə ildir ki, muxtar respublikamızda bu sahədə işlər görülür, yeni metodların tətbiqinə üstünlük verilir. Təbii ki, suvarma suyundan səmərəli və qənaətlə istifadə edilməsi üçün mütərəqqi üsullardan və innovativ qaydalardan istifadə günümüzün reallığı kimi olduqca vacibdir. Şırımla suvarma taxıl, eləcə də cərgəarası bitkilərin becərilməsində istifadə olunan mütərəqqi üsullardan biri kimi müasir əkinçilikdə xüsusi yet tutur. Bu üsuldan istifadə zamanı suvarma suyuna qənaət edilir, eyni zamanda bitkilərin suya olan tələbatı müntəzəm təmin olunur. Atmosfer yağıntılarının torpaqda səmərəli toplanması və istifadəsi yüksək səviyyədə olur. Şırım üsulunun səmərəliyini izah etmək, fikrimizi tam olaraq aydınlatmaq üçün kiçik bir nümunə də göstərə bilərik. Misal üçün, mora üsulu ilə 1 hektar taxıla 1000-1200 kub su sərf edildiyi halda, şırım üsulu ilə 800-900 kub yetərlidir. Bu üsulun üstün cəhətlərindən biri də sahələrdə dərmanlamanın əkinlərə ziyan yetirmədən, keyfiyyətli şəkildə aparılmasına yol açmasıdır.



Müsahibim bildirdi ki, artıq 4-5 ildir ki, Naxçıvanda suvarma metodu kimi damcı üsuluna üstünlük verilir. Dövlətimiz tərəfindən bu sahənin təşviqi üçün stimullaşdırma tədbirləri də görülür, damcı üsulu ilə salınmış intensiv meyvə bağlarına subsidiyalar ayrılır. Damcı üsulunun üstün keyfiyyətləri çoxdur. Bu metodda suya qənaət olunmaqla, az su ilə daha çox sahə suvarılır, torpaqda eroziya prosesi baş vermir, qrunt sularının səviyyəsi su itkiləri olmadığından dəyişməz qalır, torpaqlarda təkrar şoranlaşmanın qarşısı alınır, suvarma suyu birbaşa bitkinin kök sisteminə verildiyindən onun kökətrafı zonada bərabər şəkildə paylanması təmin edilir. Su ilə birlikdə ehtiyac olan gübrəni də bitkiyə vermək olur. Damcı sistemi qısa müddətdə böyük əraziləri optimal şəkildə suvarmağa imkan yaradır, sistem avtomatik idarə olunduğundan əl əməyi azalır, bitkilərin su təminatı yaxşılaşır. Bu suvarma üsulundan, əsasən, meyvə, tərəvəz, bostan və bir çox tarla bitkilərinin becərilməsində istifadə olunur. Damcı ilə suvarmanın iki növü vardır: Bağçılığın salınmasında damcı ilə suvarma (daimi sistem). Tərəvəz bitkilərinin damcı ilə suvarılması (mövsümi sistem). Damcı ilə suvarmada adi suvarmaya nisbətən 2-5 dəfə suvarma suyuna qənaət edilir, bitkinin kök ətrafı suvarıldığından suyun torpaq səthindən buxarlanması ilə itkiyə getməsi baş vermir. Suvarma ümumi sahənin 30-60 faizini əhatə edir. Damcı suvarma sistemi tətbiq olunan sahələrdə istənilən vaxt aqrotexniki xidmətlər göstərmək və məhsul yığmaq mümkündür. Diqqət yetiriləsi məqamlardan biri də odur ki, damcı üsulu ilə suvarılacaq bostan və tərəvəz bitkilərinin, eləcə də meyvə bağlarının salınması zamanı ərazinin torpağı əvvəlcədən analiz olunaraq sututarlığı, suvarılmada su miqdarı müəyyənləşdirilməlidir. Suvarmada digər bir geniş istifadə edilən yağışyağdırma üsuludur ki, bu zaman suvarma suyu nasosların köməyi ilə çiləyici aparatlara xüsusi borular vasitəsilə müəyyən olunmuş təzyiqlə vurulur və yağış şəklində səpilərək torpağı, bitkiləri nəmləndirir. Bu üsulla suvarmada torpaq qatı müntəzəm olaraq nəmlənir, suvarma avtomatlaşdırılır, torpaq deqradasiyasının qarşısı alınır, suvarmanın kiçik normalarla və tez-tez aparılması hesabına suvarma suyuna qənaət olunaraq becərilən bitkilərin məhsuldarlığı yüksəlir. Həmçinin sahələrdə hər il əsaslı hamarlama işlərinin aparılmasına, şırım və zolaqların düzəldilməsinə ehtiyac olmur. Daha mürəkkəb relyef şəraitində bu üsulla suvarmanın aparılması, eləcə də sahələrdə dövri suvarma normalarının istənilən kiçik həcmdə verilməsi mümkündür. Yağışyağdırma üsulu ilə suvarma müxtəlif növ kənd təsərrüfatı bitkilərinin (yonca, xaşa, qarğıdalı, soya, buğda, arpa, günəbaxan, kartof, çuğundur, kök, soğan və sair) becərilməsində geniş istifadə olunur.

Niyamət İsayev dedi: – Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin müvafiq Tədbirlər Planında qarşıya qoyulan vəzifələr sırasında quraqlığadavamlı bitki sortlarının əkilməsinin təbliği və dəstəklənməsi məsələsi də qeyd olunub. Bu baxımdan, demək olar ki, muxtar respublikada quraqlığadavamlı bitkilər, əsasən, üzüm, püstə, bostan bitkilərindən qovun, dənli-taxıl bitkilərindən "Bayraqdar" buğda sortudur. Gəlin bir neçə müqayisəli nümunələr çəkib bu barədə fikrimizi tam aydınladaq. Taxılçılıq muxtar respublika əkinçiliyində aparıcı yer tutduğundan ilk olaraq bu sahədən başlayaq. Misal üçün, bir-iki ildir, təsərrüfatçılarımız tərəfindən geniş istifadə olunan "Bayraqdar" buğda növünü götürək. Bu növün digərlərindən fərqi, üstünlüyü onun quraqlığa, soyuğa, xəstəlik və zərərvericilərə qarşı davamlı olmasıdır. Digər buğda növlərini vegetasiya dövründə 4-5 dəfə suvarmaq zəruridirsə, "Bayraqdar"dan bol məhsul götürmək üçün ona 2-3 dəfə suvarma suyu vermək kifayətdir. Məhsuldarlığı da yüksəkdir. Orta hesabla hər hektardan 30-40 sentner məhsul əldə etmək mümkündür. Digər bir nümunə kimi, muxtar respublikamıza hələ sovetlər dönəmində böyük şöhrət qazandırmış üzümü qeyd etmək olar. Üzüm kollarının kökü 4-5 metr dərinliyə çatdığı üçün suya tələbatı azdır, il ərzində bir-iki dəfə suvarmaq yetərlidir. Məhsuldarlığın hektara 200-300 sentner düşdüyünü nəzərə alsaq, mövsümdə 1 hektar ərazidən 20 ton məhsul yığmaq olar. Bunun da kiloqramını minimum 1 manatdan götürdükdə bir ailənin büdcəsini zənginləşdirmək, güzəranını yaxşılaşdırmaq üçün kifayət qədər yetərli vəsait edir. Digər tərəfdən üzümün zəhməti də yüngüldür, üzümçülük əl əməyi az tələb edən sahədir, əsas işlər texnika vasitəsilə həyata keçirilir. Onu da vurğulamaq yerinə düşər ki, ölkəmizin digər yerlərinə nisbətən Naxçıvanda bitən üzümün şəkərliyi, dad və əmtəə keyfiyyəti yüksəkdir. Bu da imkan verir ki, üzümdən həm süfrədə qida məhsulu kimi, həm də sənayedə araq, çaxır alınmasında istifadə olunsun. Bütün bunları nəzərə aldıqda belə nəticəyə gəlinir ki, əgər gələcəkdə böyük üzümçülük təsərrüfatları yaradılarsa, suya kifayət qədər qənaət edilər, qalan su ehtiyatının balanslaşdırılmış şəkildə taxıl və digər sahələrə yönəltməklə əkinçilikdə yüksək məhsuldarlıq, irəliləyiş, nailiyyət əldə etmək olar. Bu baxımdan biz də kənd təsərrüfatı işçisi kimi mütəmadi olaraq yerlərdə əkinçilərlə görüşlər keçirir, səmərəli suvarma metodlarına, əkinçilik üsullarına, əkin qaydalarına üstünlük verməleri üçün maarifləndirici söhbətlər aparırıq. İnanırıq ki, qarşımıza çıxan bütün maneələr kimi, bu ümumbəşəri vəziyyətdən də əl-ələ verərək alnıaçıq, üzüağ şəkildə çıxacağıq...

*Ümummilli Liderimiz Heydər Əliyev deyirdi ki, bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan götürməkdən daha asandır. Məhz Ulu Öndərin layiqli davamçısı ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sudan səmərəli istifadə məsələsinin xüsusi gündəmə gətirilməsinin, dövlətimizin bu istiqamətdə həyata keçirdiyi təxirəsalınmaz tədbirlərin də əsas məqsədi bu ümumbəşəri problemin yaxın gələcəkdə Azərbaycan üçün daha ağır nəticələrə yol açmasının qarşısını almaqdır. Kənd Təsərrüfatı Nazirliyinin Toxumçuluq və Bitkilərin Mühafizəsi İdarəsinin müdiri Niyamət İsayevlə söhbətimizdən gəldiyimiz qənaət isə budur ki, quraqlığadavamlı, su sərfiyyatı az olan əkin növlərini kütləviləşdirməklə, şırım əkin üsulundan, damcı, çiləmə kimi səmərəli suvarma metodlarından istifadə etməklə bu sahədə irəliləyişlərə nail olmaq mümkündür...*

**✍ Nail ƏSGƏROV**

### *İtmişdir*

Abdullayev Seyfəli Qabil oğlunun adına olan avtomobilin texniki pasportu itdiyindən etibarsız sayılır.

***

Şərur rayon Kosacan kənd sakini Şəfiyev Nadir Şıxəli oğlunun adına olan JN-143 inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair dövlət aktı" itdiyindən etibarsız sayılır.


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ramiyyə Əkbərova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1000. Sifariş № 311